kaspi.-2017.-1-3 iyul.-s.23.



■ Nəcibə İLKİN

## XƏYALLARIMIN YAĞIŞI

Bu gün gözəl havadı...
Təbiət kimi xəyallarım çiskinli, yağışlı.
Xəyallarımı qucuram,
Başqa bir aləmə uçuram.
Həsrətimin göz yaşında boğuluram.
Yenidən sevmək istəyirəm,
Bu sevgidən ölmək istəyirəm,
Nifrətimi qara kəfən edib geymək istəyirəm.
Dərdlərimi mumiyalayıb
Haqsızlığın ürəyinə damğa vuracaq
Bir ömür sürmək istəyirəm.
Xərçəng kimi damarlarımı qamarlayan
ayrılığın yolunu kəsmək istəyirəm.
İçimdəki təlaşı, yoxsul niyyətləri
aldatmağa çalışıram..
Zəhər dadan həyatı yükləyib
çiyinlərimə ürəkdən gülmək istəyirəm.
Qoy eşitsin bu yağan yağış
qəlbimdən keçənləri.
Üzü soyuq xatirələr də
ayaqlarımı dondurur.
Həyatı mənə yenidən qandırlr.
Gələcəyimə pəl vuran xatirələr..
Eh nələr, nələr..
Günahlarımla savaşıram
Sözlərim dilimdə dolaşır,
Eh... hər şey məni
Aldatmağa çalışır.

## GÖRÜŞÜMƏ GƏLMƏ

Gəlmə görüşümə, gəlmə.
Heç zəng də eləmə...
Unut olub keçənləri,
O mənli xatirələri...
Heç olmamış kimi
Qara bir örtüyə bük, bərk-bərk!
Üstündən qara bir xətt çək!
Hicranımın əli elə qanlıdı,
Səni yenidən ağuşuna alacaq,
Yox, istəmirəm, gəlmə.
Könlümün yuvasında sənin üçün
üşüyən günlərimi qoruyuram.
Yana-yana sevgi ilmələrimi toxuyuram.
Həsrətimin üzü elə soyuqdu,
Lap Sibirin uzaqları kimi...
Əllərim yanır, sənin üçün alışan
dodaqlarım kimi.
Söykəyirəm dodaqlarımı
həsrətimin buz aynasına,
Soyuq nəfəsində çırpınıram,
Özümü məhbəsdə sanıram!
Gəlmə görüşümə...
Gəlsən də danışma, dinmə...
Get.. bütün ümidlərim sənin olsun,
Təkcə.... təkcə sənsizliyimi aparma...

## BURAX ƏLLƏRİMİ...

Burax əllərimi, qoy çıxım gedim,
Nəyinə lazımdır sənin bu sevgi.
Həsrəti gözümə qoy sıxım gedim,
Olsun ürəyimə qənim, bu sevgi.

Nə əhlət daşıyam, nə ümid yeri,
Yorulub, yoğrulan qəm ağacıyam.
Burax əllərimi qoy çıxım gedim,
Bəlkə bir ürəyin ehtiyacıyam...

Ağacdan yonulub, daşdan yonulub,
Bəxtimin naxışlı oyuncağı tək.
Qıfıl da asılıb könül taxtından,
Nəzəri qaytaran göz muncuğu tək.

Burax əllərimi, a sevda yolçum,
Kirpiyim asılıb göz yaşlarımdan.
Qurtara bildimmi, sevəm də səni,
Taleyin atılan bəd daşlarından.

Burax əllərimi, qoy çıxım gedim,
İsti baxışında əriyən buzam.
Bu ömrün qışında axı nə edim,
Mən sevgi bağına gec gələn yazam.

## SÖZ ELƏMİSƏN

Səndə nə günah var, gedən ruhumu,
Qaytarıb yenidən təzələmisən.
Bir az alovunla, bir az odunla
Eşqimin bağına köz eləmisən.

Sev məni, beləcə sevdiyin kimi,
Olmuşam qəlbimin qəddar hakimi,
Hər nə edirəmsə "götür ərkimi",
Demə hər sözümü söz eləmisən.

Dəliyəm, gözümdən uzaqlaşanda,
Yaman kövrək ollam bir az coşanda,
Sənə vurulmuşam desəm son anda,
Axı, qış ömrümü yaz eləmisən.

## ÖZÜMÜZƏ TALE YAZDIQ

Üzülməyən sevgimizin,
Ürəyini niyə üzdük,
Özümüz də heç bilmədən,
Yolumuzu tərsə düzdük.

Yol gözləyən izimizin,
Dedik həsrət, kədər bizim,
Şirin dadan sevgimizin,
Badəsinə acı süzdük.

Kim uduzub, kim nə udub,
Şirin anları unudub,
Fələyin əlindən tutub,
Özümüzə tale yazdıq.

## DUYĞULARIN QANADIYAM

Buz bağlayan yollarını,
Nəfəsimlə əridəydim,
Bu ağlayan sevdamızı,
Gücüm çata, kiridəydim.

Bir dünyalıq can oduyam,
Duyğuların qanadıyam,
Mən sevginin öz adıyam,
Göydə sevib, yerə dəydim.

Yaz dərdimi, yaz aramla,
Nə yaşıyım bu yaramla,
Vüsalımı damla-damla,
Ürəyinə yeridəydim.

## BİLMİRƏM

Sən ömür baharı, mən könül qışı,
Haraya gedəcək bu yol, bilmirəm.
Mən bəxtin önündə payız yağışı,
Alırsan könlümü gəl al, bilmirəm.

Ayrılıq deməyə gəlmədi üzüm,
Verdiyin vədəndə qışladı sözün,
Həsrəti eyləyib dağ, dərə, düzüm,
Çəkdin sinəm üstə min yol, bilmirəm.

Könlümün evini min yol uçurdun,
Gözümdən gizlənib, nədən qaçırdın?
Hər məni görəndə geniş açdığın,
Kimlərə açılır o qol, bilmirəm.

Deməyin, sərxoşam xumar çəkibdi,
Mənə nə dağ çəkib, o yar çəkibdi,
De kimin saçına tumar çəkibdi,
Əlimdə buzlayan o əl, bilmirəm.